# Bakıda "TDT: Qlobal nizamsızlıq dövründə regional aktor kimi" mövzusunda konfrans keçirilib

**Sentyabrın 29-da Bakıda Türk Dövlətləri Təşkilatına (TDT) üzv dövlətlərin beyin mərkəzlərinin nümayəndələrinin iştirakı ilə "Türk Dövlətləri Təşkilatı: Qlobal nizamsızlıq dövründə regional aktor kimi" mövzusunda konfrans keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə iştirak edən beyin mərkəzlərinin nümayəndələri regional əməkdaşlığın möhkəmləndirilməsi, TDT-nin beynəlxalq arenadakı rolunun genişləndirilməsi və yeni təşəbbüslərin irəli sürülməsi imkanları barədə müzakirələr apardılar.





Konfransın açılış mərasimində çıxış edən Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) İdarə Heyətinin sədri **Fərid Şəfiyev** bildirib ki, Türk Dövlətləri Təşkilatının builki Zirvə görüşü Azərbaycanda keçiriləcək: "Təşkilata üzv və müşahidəçi dövlətlərin beyin mərkəzləri tərəfindən olaraq, Zirvə görüşlərindən əvvəl ev sahibi ölkədə öz aramızda mütəmadi görüşlər keçirməyi artıq ənənə halına salmışıq. Hətta bu istiqamətdə beyin mərkəzləri arasında memorandum imzalanıb, TDT Zirvə görüşlərinin yekun bəyannaməsində dövlət və hökumət başçıları tərəfindən bu görüşlərin davam etdirilməsi müvafiq tapşırıq olaraq müəyyən edilib. İndiyədək 10 belə görüş və konfrans təşkil etmişik. Bu gün isə 11-ci konfransı Bakıda keçiririk. 2009-cu ildən etibarən, təşkilatlanma mərhələsinə keçən TDT-nin regiondakı nüfuzu daim artan xətt üzrə inkişaf edir".

F.Şəfiyev bildirib ki, Azərbaycanın hazırda 4 dövlətlə müttəfiqlik müqaviləsi və ya bəyannaməsi var, onlardan 3-ü türk dövlətidir. Aramızdakı əməkdaşlığın gücləndirilməsi qarşılaşdığımız risk və təhlükələrə qarşı daha dayanıqlı mövqe sərgiləməyimizə imkan yaradır. Türk dövlətləri arasında əməkdaşlığın genişlənməsi regionda geosiyasi və geoiqtisadi güc balansını üzv və müşahidəçi dövlətlərin lehinə dəyişməkdədir. Artıq bölgəyə maraq göstərən xarici güclər tək bir ölkə ilə deyil, bir dövlətlər ittifaqı ilə hesablaşmaq məcburiyyətində qalırlar.

"Xüsusilə son beş ildə regionumuzda baş verən geosiyasi və geoiqtisadi proseslər TDT-yə, onun həyata keçirdiyi layihələrə diqqəti və marağı artırıb. Bu, bizim üçün böyük fürsətdir və biz bu fürsəti əməkdaşlığımızı daha da dərinləşdirmək üçün dəyərləndirməliyik. Azərbaycan hər zaman xarici siyasətində TDT-nin qlobal siyasətdə mövqeyinin möhkəmlənməsinə dəstək verib", - deyə F.Şəfiyev vurğulayıb.

Sonra Türk Dövlətləri Təşkilatının Baş katibinin müavini **Ömər Kocaman** qeyd edib ki, bugünkü konfrans bizə TDT-nin regionda və onun hüdudlarından kənarda roluna diqqət yetirmək imkanı verəcək. Dünyada baş verən sürətli dəyişikliklər, həmçinin qlobal və regional səviyyədə mühüm inkişaf və çağırışlar türk coğrafiyasında əməkdaşlığı və inteqrasiyanı daha da vacib edir. Ortaq tarix, dil, mədəniyyət və ənənələrə əsaslanan qardaş türk dövlətləri arasındakı münasibətlər böyük strateji dəyər və potensial təşkil edir.

Ö.Kocaman deyib ki, strateji-coğrafi mövqeyi sayəsində Azərbaycan türk dünyasının çox mühüm bir hissəsidir. Türk regionu daxilində ticarətin, nəqliyyatın və əlaqələndirmənin inkişafı baxımından Azərbaycan türk dünyasında körpü rolunu oynayır.

* * *

Açılış mərasimindən sonra "Siyasi təhlükəsizliyin qeyri-müəyyənliyi dövründə TDT-nin qlobal sülh və sabitliyə töhfələri" adlı panel müzakirələr aparılıb.

Əvvəlcə Qazaxıstan Prezidenti Yanında Strateji Araşdırmalar İnstitutunun direktoru **Jandos Şaymardanov** çıxış edib. O deyib: "TDT-nin inkişafı göstərdi ki, üzv ölkələr yalnız mədəni və sivilizasiyalararası əməkdaşlıqda deyil, həm də beynəlxalq arenada türk dünyasının roluna dair ortaq baxış formalaşdırıblar. Qlobal nizam yeni mərhələyə qədəm qoyur və bu, üç əsas qeyri-müəyyənliklə xarakterizə olunur: geosiyasi rəqabətin intensivləşməsi, qlobal institutların təzyiq altında olması və sabitlik mexanizmlərinin yeni reallıqlara uyğunlaşmaqda çətinlik çəkməsi. Həmçinin kiberhücumlar, dezinformasiya, iqlim dəyişiklikləri və resurs təhlükəsizliyi kimi hibrid və transmilli təhdidlər sürətlə artır, sərhəd tanımır və cəmiyyətlərin təhlükəsizliyinə birbaşa təsir göstərir".

Azərbaycan ilə Ermənistan arasında ABŞ-də Birgə Bəyannamənin imzalanmasını tarixi hadisə adlandıran J.Şaymardanov əlavə edib: "Bu nailiyyət bütövlükdə Türk dünyasının ortaq qələbəsi kimi qiymətləndirilməlidir. O, infrastrukturun təkcə iqtisadi deyil, həm də siyasi sabitlik və uzunmüddətli əməkdaşlıq zəmanəti rolunu oynayacağı bir mühit yaradır".

Türkiyə Xarici İşlər Nazirliyinin Strateji Araşdırmalar Mərkəzinin şöbə müdiri **Turhan Dilmaç** qeyd edib ki, türk dünyasında inteqrasiya prosesi heç də "blok" kimi qəbul edilməməli, əksinə, daha çox təsirli bir aktor kimi qiymətləndirilməlidir. Bu baxımdan "regional aktor" ifadəsi daha düzgün seçimdir. Çünki "blok" anlayışı qarşıdurmanı xatırladır və bu, inteqrasiya prosesimizin mahiyyətinə ziddir. O bildirib ki, belə bir şəraitdə türk dövlətləri arasında həmrəylik xüsusi əhəmiyyət kəsb edir. Biz bu həmrəyliyin real nəticələrini Qarabağ müharibəsi zamanı da gördük.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin Türk Dünyası Araşdırmaları Mərkəzinin rəhbəri **Vüsalə Cəfərova** bildirib ki, enerji müstəqilliyi dövlətlərin milli təhlükəsizliyi və davamlı inkişafı üçün strateji əhəmiyyət kəsb edir. Enerji iqtisadiyyatın lokomotivi olmaqla yanaşı, istehsalat, nəqliyyat, rabitə və sosial rifahın əsas dayağıdır. O əlavə edib ki, "yaşıl enerji" layihələri ölkələrin enerji diplomatiyasını gücləndirir və regional əməkdaşlığa töhfə verir. Məsələn, Xəzərdən Avropaya uzanan "yaşıl enerji" kabeli layihəsi artıq genişlənir və Şərqi Xəzər bölgəsinə, yeni Qazaxıstana qədər uzadılması planlaşdırılır.

Qırğız Respublikası Prezidentinin yanında Milli Strateji Təşəbbüslər İnstitutunun direktor müavini Şumkarbek Adilbek Uulu bildirib ki, hazırda dünya qarışıqlıq içindədir. Yaxın Şərqdəki vəziyyət və Rusiya-Ukrayna münaqişəsi göstərir ki, təhlükə və risklər artır, bu isə Mərkəzi Asiya ölkələrinə də təsir edir. Münaqişələr hibrid xarakter alır, yeni tipli təhdidlər - infrastrukturun hədəfə alınması, dezinformasiya, psixoloji əməliyyatlar, iqtisadi sanksiyalar, diplomatik təzyiqlər və digər risklər meydana çıxır.

* * *

Konfransın ikinci panelində "İqtisadi qeyri-sabitlik dövründə TDT-nin dünya iqtisadiyyatına, ticarət və nəqliyyat əlaqələrinə töhfələri" mövzusu müzakirə edilib.

Paneldə çıxış edən Şimali Kipr Türk Respublikasının Prezidentinin Vətəndaş Cəmiyyəti Təşkilatlarının kommunikasiya koordinatoru **Latif Akça** Şimali Kipri Türk Dövlətləri Təşkilatına təqdim edə biləcəyi kommersiya və logistika imkanları barədə danışıb. O qeyd edib ki, Şimali Kipr Türk Respublikası TDT-yə ticari və logistik imkanlar təqdim etməyə hazırdır.

L.Akça diqqətə çatdırıb ki, Şimali Kipr strateji mövqeyi ilə Türk dünyasının Aralıq dənizinə açılan təbii qapısıdır. Ada Avropa, Yaxın Şərq və Afrika qitələrinin kəsişməsində yerləşməklə yanaşı, tarixi İpək yolunun da mühüm keçid nöqtələrindən biridir. O, həmçinin bildirib ki, Şimali Kiprin sərbəst limanları və azad ticarət zonaları türk dövlətlərinin birgə istehsal və ixracat layihələrinin həyata keçirilməsi üçün əlverişli şərait yaradır. Gazimağusa azad ticarət zonasında yaradılacaq birgə istehsal və ixrac mərkəzləri təşkilat daxilində iqtisadi inteqrasiyanı gücləndirəcək. Koordinatorun fikrincə, Şimali Kipr Türk Dövlətləri Təşkilatının iqtisadi, ticari və enerji təhlükəsizliyi sahəsində mühüm tərəfdaşı ola bilər.

Qazaxıstan Prezidenti yanında Strateji Araşdırmalar İnstitutunun baş elmi işçisi **Sanat Kuşkumbayev** qeyd edib ki, ölkəsi Orta dəhliz layihəsini yalnız tranzit potensialı kimi deyil, həm də Xəzər dənizinin iki sahili və Şərq ilə Qərb arasında etibarlı, davamlı körpülər qurmaq baxımından tarixi məsuliyyət kimi qiymətləndirir. Layihə Qazaxıstan və qardaş üzv dövlətlər üçün beynəlxalq münasibətlərdə strateji cavab rolunu oynayır.

Özbəkistan Prezidenti yanında Strateji və Regional Araşdırmalar İnstitutunun direktor müavini **Şəfoat Nurullayeva** TDT çərçivəsində iqtisadi əməkdaşlığın prioritet sahələri barədə fikirlərini bölüşüb. O bildirib ki, 2023-cü ildə yaradılan Ticarət və Sənaye Palataları İttifaqı TDT ölkələrinin iş adamları arasında əlaqələri gücləndirib, ticarət və investisiyaların artmasına imkan yaradıb. Bir il sonra təsis edilən İnvestisiya Fondu isə böyük layihələrin maliyyələşməsi üçün vacibdir və kapitalı artıq 600 milyon dollara çatıb. Hazırda TDT ölkələrinin ümumi ÜDM-i 2,1 trilyon dollara, ticarət dövriyyəsi isə 45 milyard dollara çatıb. Xarici kapitala malik müəssisələrin sayı isə 53 mindən 92 minə yüksəlib. Ş.Nurullayevanın sözlərinə görə, bütün bu nailiyyətlərə baxmayaraq, hələ tam potensial reallaşmayıb. TDT üçün əsas prioritet ticarətin daha da inkişaf etdirilməsidir.

Macarıstan Beynəlxalq Münasibətlər İnstitutunun baş tədqiqatçısı **Laszlo Vasa** Orta dəhlizi təkcə nəqliyyat layihəsi kimi deyil, Şərq-Qərb və Şimal-Cənub arasında strateji körpü, həm də türk dünyasının Asiya ilə Avropa, keçmiş ilə gələcək arasında oynadığı mühüm rol kimi xarakterizə edib.

L.Vasa hesab edib ki, əsas güc türkün birliyindədir: "Ortaq dil, mədəniyyət və tarix bu əməkdaşlığı, sadəcə, taktiki deyil, strateji və institusional xarakterə çevirir. Bu sürətli tərəqqi mədəniyyətdən başlayaraq təhsil, sənaye, innovasiya, rəqəmsal iqtisadiyyat və təhlükəsizlik sahələrinə qədər genişlənir. TDT-ni isə bu baxımdan unikal edən cəhət onun təkcə təşkilat deyil, həm də "bir ailə" olmasıdır".

* * *

Konfransın sonuncu paneli isə "Qlobal qeyri-müəyyənlik dövründə TDT-nin mədəniyyət, elm və parlamentarizm üzrə siyasəti" mövzusuna həsr olunub.

Çıxış edən Türk Akademiyasının eksperti **Dinmuhəmməd Ametbek** bildirib ki, türk dünyasını birləşdirən ortaq tarix, mədəniyyət, dil və dəyərlər yalnız keçmişin xatirəsi deyil, gələcəyə gedən yolun təməlidir. Bu yolun ən mühüm dayaqlarından biri isə elmdir. Elm və təhsil sahəsində əməkdaşlıq, innovasiya və bilik mübadiləsi türk dövlətləri arasında strateji tərəfdaşlığı dərinləşdirir, iqtisadi və sosial inkişafı sürətləndirir, gənc nəsilləri bir araya gətirir.

Türk Mədəniyyəti və İrsi Fondunun layihə meneceri **Leyla Həsənova** qeyd edib ki, mədəniyyət xalqımızın ortaq kimliyinin əsas sütunlarından biridir. O, keçmişin zəngin ənənələrinə söykənərək bizə kim olduğumuzu, hansı dəyərlərə sahib olduğumuzu xatırladır. Türk dünyasının qədim və zəngin irsi yalnız tarixi bir miras deyil, həm də bu günümüzü və gələcəyimizi formalaşdıran canlı bir təməldir: "Bu baxımdan qədim türk irsinin qorunması və mühafizəsi xüsusi əhəmiyyət kəsb edir, çünki bu, mədəni yaddaşımızın gələcək nəsillərə ötürülməsini təmin edir. Hər bir ənənə, hər bir dəyər türk xalqlarını birləşdirən görünməz bağ rolunu oynayır".

Azərbaycanın Mədəniyyət Nazirliyinin Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri **Fərrux Cumayev** bildirib ki, mədəniyyət yalnız keçmişdən gələn irsimizdən qaynaqlanmır, həm də bizim yaratdığımız əməkdaşlıqdan doğur. Bu əməkdaşlıq xalqlarımız arasındakı münasibətləri şaxələndirir, gücləndirir və qarşılıqlı anlaşmanı dərinləşdirir. Türk dövlətləri öz mədəni əlaqələrini diqqətlə inkişaf etdirir və mədəniyyət bu əməkdaşlığın əsas dayağı, TDT ölkələri arasında möhkəm təməl rolunu oynayır.

Panel müzakirəsi mövzu ətrafında sual-cavab sessiyası ilə yekunlaşıb.